# Əsassız və cəfəng iddialar

## Fransanın riyakar addımları nə özünə, nə də Ermənistana xeyir gətirəcək

"Fransa son vaxtlar xüsusilə Cənubi Qafqazda açıq-aşkar gərginlik yaratmaq və sülh prosesinə mane olmaq üçün bütün gücünü səfərbər edib. Bu ölkənin Avropa və xarici işlər naziri Stefan Sejurnenin ABŞ-nin Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlər Parisin yürütdüyü siyasətin nə qədər saxta olduğunu nümayiş etdirir. Həmçinin Fransa prezidenti ermənilərin seçkilərdə onlara dəstək verməsi üçün indiyədək heç vaxt olmadığı qədər bacısına can yandırır".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Asim Mollazadə deyib. Deputat bildirib ki, bu il ABŞ-də və Avropa Birliyində keçiriləcək seçkilərlə bağlı olaraq bir sıra siyasi qüvvələr və dövlətlər, eləcə də Fransa əl-ayağa düşüb: "Onların erməni lobbisindən və diasporundan asılılığı gündəm olub. Seçkilərdə səs toplamaq istəyənlər yaxşı başa düşürlər ki, lobbi maliyyəçilərinə xoş görünmək üçün müxtəlif şoular göstərmək lazımdır. Belə şoulardan biri də aprelin 2-də Parisdə baş tutub. Belə ki, Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurne ABŞ-nin Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı növbəti dəfə əsassız iddialar səsləndirib. Əslində, bu erməni lobbisinin tələbidir. İrəvan maliyyə yatırdığı siyasi qüvvələrdən, yəni onlara borclu olan siyasətçi və ölkələrdən tələb edir ki, Ermənistana hansısa formada dəstək göstərsinlər".

Fransanın Ermənistanı silahlandırmasına və Cənubi Qafqazda hərbi mövcudluğuna nail olmaq istəyinə diqqət çəkən deputat bildirib ki, bu ölkənin Azərbaycanı aqressiv ritorikada təqsirləndirməsi tamamilə qəbuledilməzdir. Deputatın sözlərinə görə, bölgədə militarizmi təşviq edən Fransa tərəfinin ölkəmizin imicinə xələl gətirmək məqsədilə atdığı addımlar uğursuzluğa düçardır.

"Ümumiyyətlə, son dövrlər ölkəmiz əleyhinə ən zərərli və riyakar addımların məhz Ermənistanın "böyük bacı"sı Fransa tərəfindən atılması təəccüblü deyil. Bunun əsas səbəblərindən biri də Avropa Parlamentinə keçiriləcək seçkilərdə Makronun partiyasının məğlubiyyətə çox yaxın olmasıdır. Fransa həm də bu səbəbə görə İrəvanı razı salmaq üçün əlindən gələni əsirgəmir, erməni lobbi və diaspor təşkilatlarını məmnun etməyə çalışır", - deyə müsahibim qeyd edib.

Asim Mollazadə həmçinin dünyada imicini zədələyən Fransadan ədalətli qərar gözləməyin absurd olduğunu bildirib. "Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında qalanda, bir milyona yaxın azərbaycanlı öz dədə-baba yurdlarından didərgin düşəndə, Ermənistan kütləvi qırğınlar, soyqırımılar, insanlıq əleyhinə ağlasığmaz cinayətlər törədəndə səsini belə çıxarmayan Fransanın indi ədalətin tərəfində olması mümkünsüzdür. Görünür, ədalətlilik onların xislətinə yaddır", - deyən müsahibimiz fikrini belə izah edib.

Deputat yekunda vurğulayıb ki, bu cür riyakar addımlar Fransaya və onun havadarlıq etdiyi Ermənistana heç bir xeyir gətirməyəcək. Ona görə də onlar bu kimi destruktiv fəaliyyətlərinə tez bir zamanda son qoymalıdırlar.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 4 aprel, № 69.- S.4.